Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 45 **QƏRAR** Bakı şəhəri, 15 fevral 2016-cı il

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 26 noyabr tarixli 186 nömrəli qərarı ilə təsdiq edilmiş "Şəxsin narkoloji xəstəliyə düçar olmasının (narkoloji xəstəliyin diaqnozunun) müəyyən edilməsi və ya təsdiqlənməsi məqsədi ilə tibbi yoxlamanın aparılması Qaydası"nda dəyişikliklər edilməsi barədə

"Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1365-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 noyabr tarixli 1529 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 26 noyabr tarixli 186 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №11, maddə 688; 2015, № 3, maddə 327) ilə təsdiq edilmiş "Şəxsin narkoloji xəstəliyə düçar olmasının (narkoloji xəstəliyin diaqnozunun) müəyyən edilməsi və ya təsdiqlənməsi məqsədi ilə tibbi yoxlamanın aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 10-cu hissə üzrə:

1.1. ikinci abzasa "cəlb olunan" sözlərindən sonra ", habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş" sözləri əlavə edilsin;

1.2. üçüncü abzasa "cinayət" sözündən sonra ", habelə inzibati həbs nəzərdə tutan inzibati xəta" sözləri əlavə edilsin, "məhkəmə-istintaq orqanının" sözləri "istintaq və ya məhkəmənin" sözləri ilə əvəz edilsin.

2. 11-ci hissədə "məhkəmə-istintaq" sözləri "istintaq və ya məhkəmə" sözləri ilə əvəz edilsin.

3. 14-cü hissədə "və Mülki Prosessual" sözləri ", Mülki Prosessual Məcəlləsi və İnzibati Xətalar" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***